**Əlavə 1**

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin**
**“ 30 ” yanvar 2023-cü il tarixli**
**24 F №-li əmri ilə təsdiq edilmişdir.**

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Bakı şəhərində yerləşən ümumi təhsil müəssisələrinin şagirdləri arasında “II Bakı Elm Olimpiadası”na dair**

# Təlimat

## 1. Ümumi müddəalar

“II Bakı Elm Olimpiadası” Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Bakı Ali Neft Məktəbinin birgə təşkilatçılığı ilə Bakı şəhərində yerləşən ümumi təhsil müəssisələrinin şagirdləri arasında keçirilir. Olimpiadanın keçirilməsində əsas məqsəd şagirdlərin təbiət elmlərinə (fizika, kimya, biologiya) olan marağını artırmaq, bu sahədə nəzəri-təcrübi biliklərini təkmilləşdirmək, praktik və yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsinə şərait yaratmaq, dərin biliklərə malik şagirdləri aşkar etməkdən ibarətdir.

## 2. Olimpiadanın keçirilməsi

Olimpiadanın I mərhələsində iştirak edəcək komandalar 5 fevral 2023-cü il tarixinədək link vasitəsilə (https://forms.gle/gM8uRV8nMWrCm5EP7) qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçən komandalar olimpiadanın I mərhələsində iştirak edirlər və bu mərhələdə ən yüksək nəticə göstərən 24 komanda olimpiadanın II mərhələsində - final mərhələsində iştirak üçün vəsiqə qazanır.

Komandalar 3 nəfərdən (siniflər üzrə şagird seçimi sərbəstdir) təşkil olunur. Komandanın üzvü kimi 8-9-cu sinif şagirdləri iştirak edə bilər.

Olimpiada 3 fənn (fizika, kimya, biologiya) üzrə keçirilir. Birinci mərhələdə iştirakçılar 3 (üç) saat ərzində ümumi təhsil müəssisələrinin proqramlarına uyğun olaraq hər fənn üzrə 15 sualdan (ümumilikdə 45 sual) ibarət test tapşırıqlarını, final mərhələsində isə 3 (üç) saat ərzində hər fənn üzrə 5 qapalı və 1 açıq tipli tapşırığı (ümumilikdə 15 qapalı və 3 açıq tipli tapşırıq) və növbəti 3 (üç) saat ərzində hər fənn üzrə 1 təcrübə işini (ümumilikdə 3 təcrübə işi) yerinə yetirməlidirlər.

## 3. Olimpiadanın mərhələləri

Müsabiqə iki mərhələdə keçirilir.
Birinci mərhələ - 18 fevral 2023-cü il.
İkinci mərhələ - 1-31 may 2023-cü il.

## 4. Olimpiada qaliblərinin müəyyənləşdirilməsi

Qaliblər ekspert qrupu tərəfindən müəyyənləşdirilir. Ekspert qrupu Təşkilat Komitəsi tərəfindən təyin olunmuş mütəxəssislərdən ibarətdir.

Birinci mərhələdə test tapşırıqlarının hər birinin doğru cavablandırılması 1 balla qiymətləndirilir (4 səhv 1 düz cavabı aparır) və komanda üzvlərinin orta balı çıxarılır. İkinci-final mərhələsində hər bir qapalı tipli tapşırıq 2 bal olmaqla ümumilikdə 30 balla, eyni zamanda, açıq tipli tapşırıqlar da 30 balla qiymətləndirilir. Təcrübə işinin qiymətləndirilməsi ümumilikdə 40 ballıq sistemlə müəyyən olunur.

## 5. Qiymətləndirmə və rəğbətləndirmə

Qaliblər Bakı Şəhəri üzrə Təhsil İdarəsinin diplom, medal və hədiyyələri ilə təltif edilir. Əlavə olaraq final mərhələsinə keçən komandalar arasından ən yüksək bal toplayan komandalar və şagirdlər diplom ilə təltif ediləcəkdir.